**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 19 (2053) 25 fevral 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# MƏNİM ÖLMƏZ İDEALLARIM

**(əvvəli ötən saylarımızda)**

Şairin bu hayqırtısından qorxuya düşən, əsim-əsim əsən başqa bir qələm sahibi isə mitinqə yığışanlara:" Dağılışın! Dağılmasaq bizi qıracaqlar" deyə tövsiyə edirdi. Təbriz kimi minlərlə oğullarımızın qanı bahasına qovuşduğumuz müstəqililkdən hamıdan çox bəhrələnən bu şəxs, iki gündən bir, dizi beldən yuxarı olan, ərlərini alt paltarları kimi tez-tez dəyişən "xanımlara" mahnılar yazmaqla, kütləni "Yanıq Kərəmə" oynatmaqla işini bitmiş hesab etdi. Ulutürk isə belələrini qamçılayaraq belə yazırdı:

**Tutaq ki, var istedadın,**
**İlhamın da,**
**Biliyin də.**
**Rədd ol! İtil gözümdən**
**Əgər yoxsa Vətən eşqi**
**Sümüyündə, iliyində.**
**Başqa bir şeirində isə belə yazırdı:**
**Vətəndaş olmasa boş şeydir Vətən!**
**Beş günlük on günlük quzey qarıdır.**
**Vətən məfhumunun özəyindəki**
**Vətənin vüqarlı oğullarıdır.**

Xəlil Rza Ulutürk onu sevənlərin qəlbində əbədi yuva qurubdur. O, buna öz torpağına, millətinə bağlılığı ilə, nəcibliyi ilə nail olubdur. Bu meyarlar Xəlil Rza həyatının lakmus göstəriciləridir. Bunu, şair özü daha gözəl qələmə alıb:

**Kimsə cibə giribdir, mən ürəyə girmişəm.**
**Kimsə pul, sərvət görüb, mən məhəbbət görmüşəm.**
**Mən könül güldürmüşəm, sevincindən ağlayıb,**
**İslaq kipriklərindən mirvarilər dərmişəm.**

Mərhum şairimiz özü necə idisə, yeganə övladı olan Təbrizini də, öz nümunəsində eləcə tərbiyə etmişdi. Təbriz, vətənin başını qara buludlar alanda, "tək oğulların ön cəbhəyə aparılmaması"haqda hökumət qərarını rədd edir, cüt mələk sifətli qızları Türkayı və Gültacı son dəfə sinəsinə basır, çantasına bir az çörək, bir az duz, bir-iki qoğal qoyan anası Firəngiz xanımla, əllərində hələ də gəlinlik xınasının izləri qalan, duvağını təzəcə açmış ömür-gün yoldaşı Sevinc xanımla, səma genişliyində ürəyə malik atası Xəlil Rza Ulutürklə son dəfə qucaqlaşıb, könüllü olaraq ön cəbhəyə yollanmışdı.



Tezliklə Təbrizdən neçə-neçə düşmən tankını susdurması, düşmənin neçə-neçə obyektlərini yerlə yeksan etməsi, canlı qüvvəsini məhv etməsi barədə şad xəbərlər gəlməyə başladı. Bu igidliklərinə görə Təbriz artıq "Milli Qəhrəman" adına layiq görülmüşdü. Digər "tək oğullar" arxa cəbhədə qalıb kölgəli ata-ana ağuşunda şişərək gizlənəndə, 28 yaşlı Təbrizdən "qara xəbər" gəldi. Xəbəri ilk alan Ulutürk, alovlanan ürəyinin atəşini ürəyindəcə boğdu. Min bir sevdalı Firəngizini, həya və ismət ilahəsi gəlini Sevinci qucaqlayıb, "Gözünüz aydın olsun, Təbrizimiz şəhid olubdur" xəbərini verdi...

Milli Qəhrəman Təbriz Xəlilbəylinin şəhid olma xəbəri, Arazın o tayında olan əbədi və mənəvi paytaxtımız Təbrizə də gedib çıxır. Təbrizli möhtərəm şairimiz Qardaşxan bu münasibətlə Bakıya gələndə , şəhid Təbrizin məzarına səpmək üçün özü ilə ustad Şəhriyarın qəbrindən torpaq gətiribmiş. Şair bu nisgili də belə qələmə alır:

**Əlimdə bir kisə torpaq,**
**O tay... Təbriz göndərib , bax.**
**Sən=tapınaq, o=tapınaq.**
**Cüt Təbrizi qovuşduraq.**

**Ey bəxtəvər, ey üzü ağ**
**Balam, Təbrizim, Təbrizim.**
**Sən yenidən doğulmusan,**
**Salam, Təbrizim, Təbrizim.**

Milli Qəhrəmanımız Təbriz Xəlilbəyliyə də, Ulu Şəhriyara da, Ulutürkə də uca Allahdan rəhmət diləyirik...

***

Şeirlərində özünü vətənin daş və qayalarına bənzədən Məmməd Arazı son acı təsadüf deyilsə, nə real həyatda görmüşəm, nə də nəvələri Tural və Tuncayla eyni məktəbdə təhsil alan oğlumun valideyn iclaslarında. O vaxtlar belə iclaslara ata-anadan çox nənə-babalar gələrdilər. Mən onu odlu-alovlu şeirlərindən tanıyıram. Milli oyanışımızın ilk günlərindən şairin ürəkləri fəth edən, dinləyənlərin bədəninin yeddi qatını dəlib keçən bir çox şeirlərini makinada çap edib paylamışdım.

Möhtərəm şairimizi səhhətinin son dərəcə ağır çağlarında Mərkəzi Klinik Xəstəxanaya yerləşdirəndə, mən də orada idim. Sonrakı günlərin birində digər Arazsevərlərə qoşulub şairin ziyarətinə getmişdim. Sağlamlığının bu durumunda Məmməd müəllimin, yuvalarını tərk etmək məqamına gəlib



çatmış kimi görünən iri gözləri, məndə iki hiss oyatmışdı Onlardan biri o idi ki, böyük söz sərrafı olan şair, elə bil yenicə yazmaq istədiyi şeirində ifadə etmək üçün düşündüyü sözü tapmadığına görə hiddətlənir. Digər hiss isə, ünsiyyət qurub danışa bilmədiyi, küsü tutduğu dünyasının üzüdönüklüyünə qəzəbi tutub. O, son şeirini öz səsilə, öz istədiyi avazda demək istəyirdi. Elə ziyarətçilər də bu niyyətlə gəlmişdilər. Amma şair dillənmirdi. Sanki, şeirlərinin birində yazdığı fikrə xilaf çıxmaq istəmirdi:

**Bir qayaya söykənmişəm,**
**deyirəm kaş,**
**Bax, beləcə daşa dönüm yavaş-yavaş...**

Şairin ürək fəaliyyətini əks etdirən, titrəyən işıqlı dalğaların amplitudası tez-tez dəyişib endikcə, Məmməd Müəllimin çöhrəsi də nurlanır, səhər şəfəqləri kimi işıqlanır, cilalanmış möhtəşəm qranit qayasına bənzəyirdi. Mən belə qayanın bənzərini qarlı Babadağ zirvəsində, Gəmiqaya yüksəkliyində, Savalan, Kəpəz dağlarında, Qobustan qayalıqlarında görmüşdüm. Bu qayalar o qayalardır ki, qərinələrdir təbiətin kor qüvvələri onlardan kiçik bir hissə də qopara bilməyir. İndi isə, gözlərimiz önündə yeni bir zirvə - Məmməd Araz zirvəsi yaranırdı...

Məmməd Arazı pərəstişkarlarına sevdirən, onun şeirlərində milli koloritli duyğuların çox səlist və aydın ifadə edilməsidir. Belə şeirləri bir-iki dəfə oxumaq kifayət edir, o saat yaddaşa həkk olunur. Çox az adam tapılar ki, Məmməd müəllimin artıq zərb məsələyə çevrilmiş aşağıdakı şeir parçalarını əzbərdən bilməsinlər:

**Vətən daşı olmayandan**
**Olmaz ölkə vətəndaşı...**

Və yaxud

**Vətən mənə oğul desə nə dərdim,**
**Mamır olub qayasında bitərdim...**

Məmməd Araz şəxsiyyətini təsəvvür etmək üçün bu misralar kifayətdir.

Xəlil Rza Ulutürkün Məmməd Araza ithaf etdiyi şeirinin bir parçasında belə deyir:

**Mən səni görmüşəm,tunç yumruqların,**
**Yerlərə, göylərə hökm eyləyəndə.**
**Qarlı Ərzurumdan əngin Xəzərə**
**Can atan, hayqıran Araz axını**
**Sənin ürəyindən yol istəyəndə...**

**...Dinləyib şeirini pıçıldamışam:**
**Xalqımın sənətkar oğludur Araz.**
**Xalqımın yaralı bağrıdır Araz.**
**Cəsur oğullara qiymət verməkdə**
**Ah, xalqım deyəsən gecikir bir az...**

Zaman bizi Məmməd Arazlı günlərdən uzaqlaşdırdıqca onun yoxluğu özünü daha çox göstərir, onun qəbildən olan şairlərə daha çox ehtiyac duyulur. Belə anlarda Məmməd Arazı xatırladan dağlara baxırıq, oradakı qayalıqlar arasında axtarırıq. Bunu özü tövsiyə edibdir bizlərə, Böyük Şair:

**Gülüm, bir də görüşünə yubansam,**
**Adımı tut, harda dağlar dumansa.**
**Gözünü sıx,**
**Hansı daşda su yansa,**
**O daş altda Məmməd Araz yaşayır.**

Mən isə əlavə edib deyirəm ki, belə insanlar həmişə ürəklərdə yaşayır.

Barələrində qısaca söhbət açdığım insanlar təkcə mənim deyil, ümumiliyin hörmətini qazanmış adamlardır. Bunu nəzərə alan ümummilli Liderimiz Heydər Əliyev Cənabları onların hər birini sağlıqları dövründə layiqincə qiymətləndirmiş, onları Respublikanın ən ali orden və medalları ilə təltif etmiş, ən yüksək fəxri adlar vermiş və adları əbədiləşdirilmişdir.

**Ziyarətimi başa vurub geri dönəndə , istər-istəməz yolumun sağında, solunda olan möhtəşəm qəbrüstü abidələrin arasından keçməli oldum. Bu abidələr arasında əhməd cavadlara, mikayıl müşfiqlərə, hüseyn cavidlərə və s. ifadə verib onları gedər-gəlməzlərə göndərənlərinki də var. Başımı qaldırıb onlara "Ya əhli qubr" duasını vermək istəsəm də, dilimi döndərməyə gücüm çatmadı. Şərt abidənin möhtəşəmliyində, bahalı daşdan düzəldilməsində deyil. Şərt düzəldilən abidənin özülünün ürəklərdə olmasıdır. Xalq tərəfindən sevilənlərə heç abidə də lazım deyil.**

***Vaqif Məmmədov***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR